**Azərbaycan Respublikası Prezidenti, Zati-Aliləri İLHAM ƏLİYEV cənablarına**

Hörmətli Cənab Prezident,

Biz, uzun illərdir Türkiyədə yaşayan Azərbaycanlı elm adamları olaraq hər zaman Vətənimiz Azərbaycanın adını uca tutmaq və Vətənimizə istər Türkiyədə, istərsə də dünyanın fərqli yerlərində layiqli vətəndaş olmaq üçün hər cür qeyrət və çaba göstərməkdəyik. Yaşadığımız ölkənin rifahı üçün çalışmaqla bizlər eyni zamanda Azərbaycanı da buralarda nümunəvi davranışlarımızla təmsil və təbliğ edirik, etməyə də davam edəcəyik.

Bizlərin istər SSRİ zamanında, istər daha əvvəl, istərsə də müstəqilliyimizi bərpa etdikdən sonra bütün bayram və sevincinə bir az kədər və üzüntü də əlavə olunurdu hər zaman. Səbəb isə tarixi Vətən topraqlarımızın bir hissəsinin 200 ildir yadellilər tərəfindən tədricən işğal edilməsinin ağrısı ilə yaşamağımız idi. Bu yük bizlərin başını hər zaman dik tutmamıza mane olurdu. Xüsusi olaraq, müstəqilliyimizi bərpa etdikdən sonra üzdəniraq qonşularımızın mülki şəxslərə və ümumilikdə xalqımıza qarşı törətdiyi vəhşiliklər və soyqırıma çevrilən qətliamları bundan sonra da unutmayacağımız bir reallıqdır və heç bir zaman inkar olunmayacaq acı tariximizin bir parçasıdır.

Lakin son 20 ildə Respublikamızda cərəyan edən hadisələr və iqtisadi inkişaf, ordumuzun yenidən təsisi və dünya standartlarında müasır orduya dönüşməsi, ələlxüsus son 3 ildə Sizin - Ali Baş Komandanın rəhbərliyi ilə işğal olunmuş topraqlarımızın 44 günlük İkinci Qarabağ savaşında (2020-ci ildə) və sonrasında (19/20 sentyabr 2023-cü ildə) antiteror əməliyyatı ilə geri alınması, Ordumuzun Qarabağ topraqlarındakı cahanşumul yürüşü və cənnət Vətənimizin hər qarış torpağında üçrəngli bayrağımızın dalğalanması biz azərbaycanlıların, o əyilmiş başımızın yenidən ucalmasını təmin etdi. Bunun üçün qədirşünas Azərbaycan

Tel: +90 212 409 28 00 Fax : +90 212 409 2828 Mail : info@tadef.org.tr
Ataköy 4. Kısım Cevat Dursunoğlu Cad. No : 6 34158 Bakırköy / İstanbul

xalqı Sizə və Müzəffər Ordumuza minnətdardır ve heç bir zaman unutmayacaqdır.

Bu il eyni zamanda Azərbaycanı küllərindən şahə qaldıran və müasir Azərbaycanı yaradan, yolgöstərici olan ulu öndərimiz Heydər Əliyevin doğumunun 100-cü ili və əbədiyyətə uğurlamağımızın 20-ci ildönümüdür. Bir tərəfdən sevincliyik, digər tərəfdən də hüznlü. Heyif ki, Ulu Öndərimiz bu günləri görə, o sevinci və qüruru çox sevdiyi xalqı ilə paylaşa bilmədi. Ulu öndərimizin başladığı işi Siz, Zati-Aliləri tamamladınız və rəhmətlik Atanızın vəsiyyətini yerinə gətirdiniz. Bundan böyük xoşbəxtlik və qurur ola bilməz. Biz Türkiyədə yaşayan və çalışan azərbaycanlı elm adamları Sizinlə nə qədər qurur duysaq da, yenə azdır. Azərbaycanımızın tarixinə Sizin adınız qızıl hərflərlə həkk olunmuşdur.

Bu günlərdə 7 fevral 2024-cü ildə Azərbaycanda növbədənkənar Prezident seçkilərinin keçirilməsinə qərar verildi. Hesab edirik ki, İkinci Qarabağ müharibəsində tarixi Zəfər əldə olunduqdan və Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunduqdan sonra yeni Prezident seçkilərinin keçirilməsi zərurət idi. Siz də peşəkar siyasətçi olaraq zamanın bu çağırışını doğru qiymətləndirdiniz və cəsarətlə növbədənkənar seçkilərə gedilməsi barədə qərarınızı elan etdiniz. Dünyanın hər yerində yaşayan Azərbaycan vətəndaşları kimi, Türkiyədə yaşayan və çalışan azərbaycanlı elm adamları da hər zaman olduğu kimi, bu seçkilərdə də hürr iradə və istəyimizlə səsimizi verəcəyik. Şübhəsiz ki, bu seçkilərdə səsimiz Sizə - Müzəffər Ordumumuzun Ali Baş Komandanına olacaqdır. İnanırıq və ümidliyik ki, bu seçkilərdə də Zəfər Sizin olacaq. Müasir Azərbaycanı Sizin kimi bir liderdən məhrum edə biləcək nə güc, nə də iradə var.

Seçkilər bitdikdən və xalqımızın etimadını yenilədikdən sonra Siz Zati-Aliləri, ənənəvi olaraq Türkiyə Cümhuriyyətini ziyarət edirsiniz. Bu minvalla Siz Prezidentimizdən tək bir xahişimiz olacaq: Türkiyədə yaşayan azərbaycanlı elm adamları ilə, gərgin iş qrafikinizə rəğmən, görüşməyiniz. Bu görüş biz azərbaycanlı zıyalılar üçün olduqca vacib olacaq, bizlərə verəcəyiniz tövsiyələr qarşıdakı çalışmalarımızda bizlərə güc verəcək və yolgöstərici olacaqdır.

Fürsəttən istifadə edərək Sizi, doğum gününüz münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə möhkəm can sağlığı və müvəffəqiyyətlər arzulayırıq.

**Hörmətlərimizlə,**

**Azərbaycan Bilim İnsanları Dərnəyinin Qurucu Təşəbbüs Qrupu üzvləri adına**

**Azərbaycan Respublikası Əməkdar Elm Xadimi, Dövlət Mükafatı Laureatı (1988),**

**Professor Dr.** **ƏMİRULLA MƏMMƏDOV**

**TADEF İH-nin Sədri** **ƏDALƏT TURAN**